**Gəncə Dövlət Universitetində 2019/2020-ci tədris ilinin yaz imtahan sessiyasına hazırlıq haqqında rektorluğun 19.05.2020-ci il 5/83 saylı əmrinə əlavə**

**Tələbələrin nəzərinə!**

(bakalavriat səviyyəsində əyani və qiyabi formada təhsilalanlar üçün)

I, II, III və IV (qoşa ixtisaslar, qiyabi təhsil) kurs tələbələri internet üzərindən test imtahanları zamanı əvvəlcədən aşağıdakı hazırlıqları görməlidirlər.

Ağ vərəqdə (dəftər vərəqi də ola bilər) fakültənin adını, ixtisasın adını, kursunu, qrupunu, imtahan verdiyi fənnin adını, öz adı və soyadını, imtahanın verildiyi tarixi qeyd etməlidir.

**NÜMUNƏ**

*Riyyaziyyat- informatika fakültəsi, Riyaziyyat müəllimliyi ixtisası, 2-ci kurs, qrup 3, Fənn - Elementar riyaziyyat, Məmmədov Qulu Ramiz oğlu, 14.06.2020*

Tələbəyə hər bir fənn üzrə 50 test sualı təqdim edilir. Hər bir testdə biri düz olmaqla, A)….., B)……, C)……., D)……. E)….. kimi işarələnmiş 5 cavab verilir. Tələbə testin nömrəsini və qarşısında düzgün variantı qeyd etməlidir. Məsələn, *20-B. Yəni 20-ci testin düz cavabı B variantında verilmişdir*.

Tələbə vaxt itirməməsi üçün vərəqdə əvvəlcədən 1-dən 50-yə qədər testlərin nömrəsini 5 sütunda (birinci sütunda 1-10-a, ikinci sütunda 11-20-yə, üçüncü sütunda 21-30-a, dördüncü sütunda 31-40-a, beşinci sütunda 41-50-yə) nümunədə göstərildiyi kimi yazmalı, imtahan vaxtı isə testin nömrəsinin qarşısında düzgün variantı qeyd etməlidir.

Tələbə testin cavabını bilmədikdə bu cavabı qeyd etməyə bilər. İmtahan başlayana qədər tələbə aşağıdakıları qeyd etməlidir.

**NÜMUNƏ**

*Tarix-Coğrafiya fakültəsi. Tarix müəllimliyi ixtisası 2-ci kurs, 2-ci qrup, Fənn: Türk xalqlarl tarixi-2, Məmmədov Qulu Ramiz oğlu, 16.06.2020*

| | | | | |
|---|---|---|---|---|
| 1- | 11- | 21- | 31- | 41- |
| 2- | 12- | 22- | 32- | 42- |
| 3- | 13- | 23- | 33- | 43- |
| 4- | 14- | 24- | 34- | 44- |
| 5- | 15- | 25- | 35- | 45- |
| 6- | 16- | 26- | 36- | 46- |
| 7- | 17- | 27- | 37- | 47- |
| 8- | 18- | 28- | 38- | 48- |
| 9- | 19- | 29- | 39- | 49- |
| 10- | 20- | 30- | 40- | 50- |

Tələbənin imtahandan əvvəl yaratdığı bu vərəqi **cavab kartı** adlandıracağıq. Cavab kartında testlərin nömrələnməsi yuxarıda olduğu kimi göstərilməlidir.

Bütün məlumatları tələbə diyircəkli qələm (ruçka) ilə yazmalıdır.

Düz cavaba uyğun variant (A, B, C, D, E) böyük hərflə aydın yazılmalıdır. Qaralama olmamalıdır. Məsələn, *21-A, 43-C, 32- E, 45-D* və s.

Əgər hər hansı testin cavabında variant səhv yazılıbsa (imkan daxilində olmasın) həmin variantın üstündən xətt (X) çəkilməli və variant yenidən yazılmalıdır. Məsələn, *28-X-B.*

Variant diyircəkli qələm ilə yazılmalıdır (karandaşla qeyd etmək olmaz).

İmtahana 1 (bir) saat vaxt verilir. İmtahan üçün tərtib olunmuş testlər imtahanın başlanmasına 10-15 dəqiqə qalmış WhatsApp-da yaradılmış qrupa qoyulur. Bunun üçün tyutorlar sizinlə əlaqə saxlayıb sizin telefon nömrənizi (WhatsApp-a qoşulmuş öz nömrəniz və ya ailə üzvlərindən birinin nömrəsi ola bilər) alıb sizi qrupa qoşacaqlar. WhatsApp mühitindən istifadə sadə və hamı üçün əlçatan olduğundan imtahan prosesi bu mühitdə təşkil olunur.

İmtahanın başlanma vaxtı imtahan cədvəlində göstəriləcək.

**İmtahan üç növbədə keçiriləcək:**

1-ci növbə -$10^{00}$-dan $11^{00-}$dək

2-ci növbə -$13^{00-}$dan $14^{00-}$dək

3-cü növbə -$16^{00}$-dan $17^{00}$-dək

Birinci növbədə bütün fakültələrin I kurs və qoşa ixtisasların IV kurs tələbələri, ikinci növbədə bütün fakültələrin II kurs tələbələri, üçüncü növbədə Universitetin bütün fakültələrinin III kurs tələbələri iştirak edəcək.

Bir saat ərzində testin cavabları müəyyənləşdirilməli, əvvəlcədən hazırlanmış cavab kartı üzərində qeyd edilməli, telefonla cavab kartının şəkli çəkilməli və şəklin telefonda çəkilmiş (cavab kartını çəkən zaman diqqətli olmalı, informasiyanın düzgün əks olunmasına fikir verilməlidir) surəti imtahanın bitməsinə 15 dəqiqə qalmış WhatsApp-da yaradılmış qrupa qoyulmalıdır.

Tələbənin göndərdiyi cavab kartının WhatsApp qrupuna qoyulma vaxtı (saat, dəqiqə və saniyə) sistem tərəfindən qeydə alınır.

Cavab kartının surətinin WhatsApp qrupuna qoyulma vaxtı:

1-ci növbə -$10^{45}$-dən $11^{00-}$dək

2-ci növbə -$13^{45-}$dan $14^{00-}$dək

3-cü növbə -$16^{45}$-dan $17^{00}$-dək

Bu vaxtdan əvvəl və bir saat tamam olduqdan sonra WhatsApp qrupuna göndərilən cavab kartını sistem qəbul etməyəcək.

Sizin göndərdiyiniz cavab kartı olduğu kimi çap olunur, hər bir testin nömrəsinin qarşısında qeyd etdiyiniz cavab variantının yanında düzgün olduğunu bildirən (+) işarəsi qoyulur, ümumi bal hesablanır, cavab kartında qeyd olunur, *cavab kartının şəkli çəkilir, sizin cavablarınızla tanış olmağınız üçün WhatsApp-da yaradılan qrupa qoyulur. Sizin göndərdiyiniz cavab kartı və sizə göndərilən nəticəni əks etdirən cavab kartı olduğu kimi yaddaşda və çap variantı isə fakültə dekanlığında saxlanılır.*

İmtahanda iştirak etməyən (üzrlü və ya üzrsüz), təhsil haqqı borcuna görə imtahana buraxılmayan, imtahanlardan müvəffəq qiymət almayan tələbələr üçün iyul-avqust aylarında ödənişsiz əsaslarla 3-5 həftə ərzində (kreditindən asılı olaraq) hər bir fənn üzrə icmal

mühazirələr, məsləhət saatları təşkil olunacaq. Bu dərslərdə iştirak etmək məcburidir. Yeni imtahan keçirilməsi (avqust-sentyabr ayı ərzində) barədə (imtahanın keçirilmə vaxtı, imtahanın forması və imtahan sualları yenidən işlənməklə ) əlavə məlumat veriləcək.

İmtahanlar online formada keçiriləcək. Mobil telefonunuzun elektrik enerjisi ilə dolu və internetə çıxışın olması vacibdir.

İmtahan cədvəli və fənlər üzrə 300 test (250 test cavab variantları ilə, 50 test cavabsız) **10.06.2020** tarixədək fakültələrin saytında yerləşdiriləcək.

Təqaüd sıralaması **08.06.2020-03.07.2020** tarixlərində və avqust ayında (əvvəlki imtahanda iştirak etməyən və ya qeyri müvəffəq qiymət alan tələbələr) təşkil olunacaq imtahan nəticələrinə görə aparılacaq.

Tələbə testlər ilə tanış olduqdan sonra çətinlik çəkdiyi mövzu haqqında online dərslərin təşkili üçün dekanlığa müraciət edərək fənn müəllimindən məsləhət ala bilər.

Tələbəyə imtahanda **40** test sualı cavabı ilə verilən 250 testlərdən, **10** test sualı isə cavabsız verilən **50** testin içərisindən veriləcəkdir.

Tələbəyə cavablandırdığı düzgün testlərin sayı qədər bal verilir (hər bir düzgün cavablandırılan suala görə tələbəyə 1 bal verilir). Testlərdən toplanan bala görə aşağıdakı qayda üzrə yekun imtahan balı hesablanır:

**17, 18, 19 düzgün cavaba görə 51 bal**
**20, 21 düzgün cavaba görə 52 bal**
**22, 23 düzgün cavaba görə 53 bal**
**24, 25 düzgün cavaba görə 55 bal**
**26 düzgün cavaba görə 57 bal**
**27 düzgün cavaba görə 58 bal**
**28 düzgün cavaba görə 59 bal**
**29 düzgün cavaba görə 60 bal**
**30 düzgün cavaba görə 61 bal**

**Düzgün cavabların sayı 31 və ondan çox olduqda 2-yə vurulmaqla yekun imtahan balı hesablanır.** Məsələn, *Tələbə imtahanda 39 testə düzgün cavab veribsə, onun yekun imtahan balı 39x2=78 bal götürülür*.

**Buradan göründüyü kimi tələbəyə onun cavabından asılı olaraq imtahanda topladığı baldan əlavə 30÷50 bal verilir.**

Tələbə imtahan qiymətindən narazı olduğu halda (tələbənin cavab blankı yoxlanılıb nəticə ona elan olunduqdan sonra) hansı nömrəli testin cavabının düzgün olmadığını qeyd etməklə WhatsApp-dan istifadə etməklə universitet rektorunun adına aşağıdakı məzmunda ərizə ilə müraciət etməlidir.

**NÜMUNƏ**

Gəncə Dövlət Univeritetinin
rektoru Y.Ə. Yusibova
Riyaziyyat-İnformatika fakültəsinin informatika ixtisasının 2-ci kurs 1-ci qrup tələbəsi Şeyxzamanlı Tomris Comərd qızından

ƏRİZƏ

XX.XX.2020 tarixində "*fənnin adı*" fənnindən imtahan vermişəm və *xx* bal toplamışam. *N1, N2*-ci testlərdə mənim qeyd etdiyim cavablara görə bal verilməyib. Mənim cavabım düzgündür. Mənim cavablarımın yenidən yoxlanmasına köməklik göstərmənizi Sizdən xahiş edirəm!

İmza: ......
Tarix: ........

**Bakalavriat səviyyəsində dövlət imtahanı və buraxılış işinin müdafiəsi:**

Bu proses 24 iyun – 10 avqust 2020-ci il tarixlərində təşkil olunacaq.

Bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş və təhsil haqqını ödəmiş (ödənişli əsasəlarla təhsil alan tələbələr üçün) tələbələr Yekun Dövlət Attestasiyasına buraxılırlar.

Mövcud təlimata əsasən Yekun Dövlət Attestasiyası buraxılış işinin müdafiəsi və ya dövlət imtahanı formasında keçirilir.

Bakalavriat səviyyəsində buraxılış işinin müdafiəsi müxtəlif platformalardan (Cisco Web EX, Zoom, Team Link, WhatsApp və s.) istifadə edilməklə Dövlət Attestasiya Komissiyasının iclasında online qaydada aparılacaq (buraxılış işinin təqdimat müddəti 5-7 dəqiqədir). Tələbənin yazdığı buraxılış işi attestasiyaya bir həftə qalmış fakültə dekanlığına internet üzərindən ötürülməlidir. Buraxılış işinə ixtisas kafedrasından bir müəllimin rəyi qənaetbəxşdir.

Buraxılış işini müvəffəqiyyətlə yerinə yetirmiş tələbələrin YDA üçün nəticələri yüksək qiymətləndiriləcək (onların karantin dövründə buraxılış işlərini yerinə yetirmək üçün göstərdikləri təşəbbüs və fədakarlığı nəzərə alaraq).

Tələbə buraxılış işini hər hansı səbəbdən tamamlaya bilmədikdə Dövlət imtahanı verməsi barədə rektora ərizə ilə müraciət etməlidir.

Dövlət imtahanı verməsi nəzərdə tutulan tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə-ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab edilirlər. Buraxılış kurs tələbələri müəyyən müddət ərzində (15 fevral – 03 mart 2020-ci il tarixində) keçirilən təcrübələr üçün veriləcək hesabatdan azad edilirlər və onların hər birinə keçdikləri fənnlərin attestasiyalarından topladıqları bala uyğun qiymət verilir.

**Magistratura səviyyəsi üzrə təhsil alan tələbələrin nəzərinə!**

Tələbə imtahanda sualların cavablarını qeyd etmək üçün əvvəlcədən aşağıdakı hazırlıqları görməlidir.

Əvvəlcədən 3-4 vərəq ağ kağız götürür (dəftər vərəqi də ola bilər), vərəqi nömrələyir, şöbənin və ixtisasın adını, kursunu, imtahan verdiyi fənnin adını, soyadı, öz adı və ata adını, imtahanın verildiyi tarixi qeyd etməlidir.

**NÜMUNƏ**

*Magistratura şöbəsi, Riyazi analiz ixtisası, 1-ci kurs, Fənn: Riyazi analizin müasir problemləri, Məmmədov Qulu Ramiz oğlu, 14.06.2020*

Tələbəyə hər bir fənn üzrə 5 sualdan ibarət bilet təqdim edilir. Tələbə ona verilən biletdəki sualların cavablarını əvvəlcədən hazırladığı vərəqdə sualın nömrəsini qeyd etməklə yazır (ardıcıllıq məcburi deyil). Tələbə sualın cavabını bilmədikdə yazmaya bilər.

Bütün cavabları tələbə diyircəkli qələm (ruçka) ilə yazmalıdır.

Əgər hər hansı sualın cavabını səhv yazıbsa (imkan daxilində olmasın) həmin sualın üstündən xətt (X) çəkilməli və cavab yenidən yazılmalıdır.

İmtahana 2 (iki) saat vaxt verilir. İmtahan üçün tərtib olunmuş biletlər imtahanın başlanmasına 5-10 dəqiqə qalmış WhatsApp-da yaradılmış qrupa yerləşdirilir. Bunun üçün tyutorlar sizinlə əlaqə saxlayıb sizin telefon nömrənizi (WhatsApp-a qoşulmuş öz nömrəniz və ya ailə üzvlərindən birinin nömrəsi ola bilər) alıb sizi qrupa qoşacaqlar. WhatsApp mühitindən istifadə sadə və hamı üçün əlçatan olduğundan imtahan prosesi bu mühitdə təşkil olunur. İmtahanın başlanma vaxtı imtahan cədvəlində göstəriləcək.

İki saat ərzində biletin cavabları müəyyənləşdirilməli, əvvəlcədən hazırlanmış cavab kağızı üzərində qeyd edilməli, telefonla cavab kağızının şəkli çəkilməli və şəklin telefonda çəkilmiş (cavab kağızını çəkən zaman diqqətli olmalı, informasiyanın düzgün əks olunmasına fikir verilməlidir) surəti WhatsApp -da yaradılmış qrupa göndərilməlidir.

Tələbənin göndərdiyi cavab kağızının WhatsApp qrupuna yerləşdirilmə vaxtı (saat, dəqiqə və saniyə) sistem tərəfindən qeydə alınır. İkinci dəfə göndərilən və ya iki saat tamam olduqdan sonra göndərilən cavabları sistem qəbul etmir.

Sizin göndərdiyiniz cavab kağızı olduğu kimi çap olunur, hər bir sualın cavabı yoxlanılır və ümumi bal hesablanır. Bal cavab kağızında qeyd olunur, cavab kağızının skan olmuş surəti hazırlanır, sizin cavablarınızla tanış olmağınız üçün WhatsApp-da yaradılan qrupa qoyulur. Sizin göndərdiyiniz cavab kağızı və sizə göndərilən nəticəni əks etdirən cavablar olduğu kimi yaddaş daşıyıcı qurğuda və çap variantı şöbədə saxlanılır.

İmtahanda iştirak etməyən (üzrlü və ya üzrsüz) və ya imtahandan müvəffəq qiymət almayan tələbələr üçün iyul-avqust aylarında ödənişsiz əsaslarla 3-5 həftə ərzində (kreditindən asılı olaraq) hər bir fənn üzrə icmal mühazirələr, məsləhət saatları təşkil olunacaq. Bu dərslərdə iştirak etmək məcburidir. Yeni imtahan keçirilməsi (avqust-sentyabr ayı ərzində) barədə

(imtahanın keçirilmə vaxtı, imtahanın forması və imtahan sualları yenidən işlənməklə) əlavə məlumat veriləcək.

İmtahanlar online formada keçiriləcək. Mobil telefonunuzun elektrik enerjisi ilə dolu və internetə çıxışının olması vacibdir.

İmtahan cədvəli və fənlər üzrə bilet sualları **10.06.2020** tarixədək magistratura şöbəsinin saytında yerləşdiriləcək.

Təqaüd sıralaması **08.06.2020 - 03.07.2020** tarixlərində və avqust ayında (əvvəlki imtahanda iştirak etməyən və ya qeyri müvəffəq qiymət alan tələbələr) təşkil olunacaq imtahan nəticələrinə görə aparılacaq.

Tələbə suallar ilə tanış olduqdan sonra çətinlik çəkdiyi mövzu haqqında onlayn dərslərin təşkili üçün dekanlığa müraciət edə bilər.

Tələbəyə cavablandırdığı hər bir düzgün suala görə 0-10 bal verilir. Suallar üzrə toplanan bala görə aşağıdakı qayda üzrə yekun imtahan balı hesablanır:

**17, 18, 19 bal topladıqda yekun bal 51**
**20, 21 bal topladıqda yekun bal 52**
**22, 23 bal topladıqda yekun bal 53**
**24, 25 bal topladıqda yekun bal 55**
**26 bal topladıqda yekun bal 57**
**27 bal topladıqda yekun bal 58**
**28 bal topladıqda yekun bal 59**
**29 bal topladıqda yekun bal 60**
**30 bal topladıqda yekun bal 61**

**İmtahanda toplanan bal 31 və ondan çox olduqda 2-yə vurulmaqla yekun imtahan balı hesablanır.** Məsələn, tələbə imtahanda 39 bal toplayıbsa onun yekun imtahan balı 39x2=78 bal götürülür. Buradan görünür ki, tələbəyə onun cavabından asılı olaraq imtahanda topladığı baldan əlavə 30-50 bal verilir.

İmtahanlar iki növbədə aşağıdakı saatlarda keçiriləcək.

**I növbə saat 10:00- 12:00**

**II növbə saat 14:00-16:00**

**Magistrlik dissertasiyasının müdafiəsi:**

Bu proses 24 iyun - 10 avqust 2020-ci il tarixdə keçiriləcək.

Magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən, nəzərdə tutulmuş cari attestasiyalardan (fənnlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş və təhsil haqqını tam ödəmiş (ödənişli əsaslarla təhsil alan tələbələr üçün) tələbələr Yekun Dövlət Attestasiyasına buraxılırlar.

Magistratura səviyyəsində magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclasında müxtəlif platformalardan (Microsoft Web EX, Zoom, Team Link, WhatsApp və s.) istifadə edilməklə online qaydada aparılacaq (təqdimat üçün 7-10 dəqiqə kifayətdir).

Tələbənin tərtib etdiyi dissertasiya işi attestasiyaya bir həftə qalmış magistratura şöbəsinə internet üzərindən təhvil veriləcək. İş üzrə ən azı bir nəfərin rəyi olması qənaətbəxşdir. Rəy kağız daşıyıcıda və ya elektron formada təqdim edilə bilər.

Tələbə imtahan qiymətindən narazı olduğu halda (tələbənin cavab blankı yoxlanılıb nəticə ona elan olunduqdan sonra) hansı nömrəli sualın cavabının düzgün olmadığını qeyd etməklə WhatsApp vasitəsilə universitet rektorunun adına aşağıdakı məzmunda ərizə ilə müraciət etməlidir.

**N Ü M U N Ə**

Gəncə Dövlət Univeritetinin rektoru
Y.Ə.Yusibova
Magistratura şöbəsinin İnformatika ixtisasının 1-ci kurs tələbəsi *Şeyxzamanlı Tomris Comərd qızından*

**ƏRİZƏ**

Hörmətli Yusif müəllim!

XX.XX.2020 tarixində "fənnin adı" fənnindən imtahan vermişəm və xx bal toplamışam. N1, N2-ci suallarda mənim qeyd etdiyim cavablara görə bal verilməyib. Mənim cavabım düzgündür. Mənim cavablarımın yenidən yoxlanmasına göstəriş verməniz Sizdən xahiş edirəm.

İmza: ......
Tarix: .........

**Əlavə təhsil fakültəsi üzrə**
**Müdavimlərin nəzərinə!**

Tələbə imtahanda sualların cavablarını qeyd etmək üçün əvvəlcədən aşağıdakı hazırlıqları görməlidir.

Əvvəlcədən 3-4 vərəq ağ kağız götürür (dəftər vərəqi də ola bilər), vərəqi nömrələyir, şöbənin, ixtisasın adını, imtahan verdiyi fənnin adını, soyadı, öz adı və ata adını, imtahanın verildiyi tarixi qeyd etməlidir.

**NÜMUNƏ**

*Əlavə təhsil fakültəsi, Riyaziyyat müəllimliyi ixtisası, Fənn: Riyazi analiz, Məmmədov Qulu Ramiz oğlu, 14.06.2020*

Müdavimə hər bir fənn üzrə 3 sualdan ibarət bilet təqdim edilir.

Müdavim ona verilən biletdəki sualların cavablarını əvvəlcədən hazırladığı vərəqdə sualın nömrəsini qeyd etməklə yazır (ardıcıllıq məcburi deyil).

Müdavim sualın cavabını bilmədikdə yazmaya bilər.

Bütün cavabları Müdavim diyircəkli qələm (ruçka) ilə yazmalıdır.

Əgər hər hansı sualın cavabını səhv yazıbsa (imkan daxilində olmasın) həmin sualın üstündən xətt (X) çəkilməli və cavab yenidən yazılmalıdır.

İmtahana 2 (iki) saat vaxt verilir. İmtahan üçün tərtib olunmuş biletlər imtahanın başlanmasına 5-10 dəqiqə qalmış WhatsApp-da yaradılmış qrupa yerləşdirilir. Bunun üçün dekanlığın işçiləri sizinlə əlaqə saxlayıb sizin telefon nömrənizi (WhatsApp-a qoşulmuş öz nömrəniz və ya ailə üzvlərindən birinin nömrəsi ola bilər) alıb sizi qrupa qoşacaqlar. WhatsApp mühitindən istifadə sadə və hamı üçün əlçatan olduğundan imtahan prosesi bu mühitdə təşkil olunur. İmtahanın başlanma vaxtı imtahan cədvəlində göstəriləcək. İki saat ərzində biletin cavabları müəyyənləşdirilməli, əvvəlcədən hazırlanmış cavab kağızı üzərində qeyd edilməli, telefonla cavab kağızının şəkli çəkilməli və şəklin telefonda çəkilmiş (cavab kağızını çəkən zaman diqqətli olmalı, informasiyanın düzgün əks olunmasına fikir verilməlidir) surəti WhatsApp -da yaradılmış qrupa göndərilməlidir.

Müdavimin göndərdiyi cavab kağızının WhatsApp qrupuna yerləşdirilmə vaxtı (saat, dəqiqə və saniyə) sistem tərəfindən qeydə alınır. İkinci dəfə göndərilən və ya iki saat tamam olduqdan sonra göndərilən cavabları sistem qəbul etmir.

Sizin göndərdiyiniz cavab kağızı olduğu kimi çap olunur, hər bir sualın cavabı yoxlanılır və qiymət yazılır. Nəticə "qeyri-kafi" (2), "kafi" (3), "yaxşı" (4), və "əla" (5) qiymətlərlə qiymətləndirilir. Qiymət cavab kağızında qeyd olunur, cavab kağızının skan olunmuş surəti hazırlanır, sizin cavablarınızla tanış olmağınız üçün WhatsApp-da yaradılan qrupa yerləşdirilir. Sizin göndərdiyiniz cavab kağızı və sizə göndərilən nəticəni əks etdirən cavablar olduğu kimi yaddaş daşıyıcı qurğuda və çap variantı isə Əlavə təhsil fakültəsində saxlanılır.

İmtahanlar onlayn formada keçiriləcək. Mobil telefonunuzun elektrik enerjisi ilə dolu olması, internetə çıxışının olması vacibdir.

Sualların cavabları sayta qoyulmuş mühazirə mətnindən götürülə bilər.

İmtahan cədvəli və fənlər üzrə bilet sualları **10.06.2020** tarixədək əlavə təhsil fakültəsinin saytında yerləşdiriləcək.

Tələbə suallar ilə tanış olduqdan sonra çətinlik çəkdiyi mövzu haqqında onlayn dərslərin təşkili üçün dekanlığa müraciət edə bilər.

İmtahanlar bir növbədə aşağıdakı kimi keçiriləcək:

**I növbə saat 10:00- 12:00**

Müdavimlər dövlət imtahanından azaddır. Dövlət imtahanı əvəzinə yenidən hazırlanma ixtisası üzrə tədris planının bütün şərtlərini yerinə yetirmiş, yəni nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş və təhsil haqqını tam ödəmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə-ÜOMG) uyğun olaraq Yekun Attestasiyadan keçmiş hesab edilirlər.

Bu formada qiymətləndirmə ilə razı olmayan tələbələr yazılı formada Dövlət İmtahanı verməlidirlər.

Tələbə imtahan qiymətindən narazı olduğu halda (tələbənin cavab blankı yoxlanılıb nəticə ona elan olunduqdan sonra) hansı nömrəli sualın cavabının düzgün olmadığını qeyd etməklə WhatsApp vasitəsilə universitet rektorunun adına aşağıdakı məzmunda ərizə ilə müraciət etməlidir.

**NÜMUNƏ**

Gəncə Dövlət Univeritetinin rektoru
prof. Y.Ə. Yusibova
Əlavə təhsil fakültəsinin Riyaziyyat müəllimliyi ixtisasının müdavimi
Şeyxzamanlı Tomris Comərd qızından

**ƏRİZƏ**

Hörmətli Yusif müəllim!

XX.XX.2020 tarixində "fənnin adı" fənnindən imtahan vermişəm və xx qiymət almışam. N1, N2-ci suallarda mənim qeyd etdiyim cavablara görə düzgün qiymət verilməyib. Mənim cavablarımın yenidən yoxlanmasına göstəriş verməniz Sizdən xahiş edirəm.

**İmza**: ......
**Tarix:**

**R E K T O R L U Q**